# Azərbaycanın əldə etdiyi uğurlar yüksək qiymətləndirilir

## Prezident İlham Əliyev Davosda "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Nik Studer "OliverWyman Group" şirkətinin beynəlxalq strateji idarəedici şirkət olaraq ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxundu, Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və yaşıl enerji sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini qeyd etdi. O, Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı şirkətin Azərbaycana marağını dəstəkləyərək, ölkəmizin müvafiq qurumları ilə "OliverWyman Group" arasında əməkdaşlığın qurulması məsələlərinə toxundu.

Azərbaycan. - 2025.- 22 yanvar (№13 ).- S.2.